**17.03.2022: xəbər**

## The final conference of the Assuming Responsibility for Climate Change (aRCc) project was held

On March 15, 2022, Dunya School hosted the final conference on " Assuming Responsibility for Climate Change " as part of the arCc project, supported by the Creative Commissions Program of the British Council in partnership with Khazar University.

The conference began with an introductory speech by Ms. Raziya Isayeva, Director of Development. She greeted participants and guest speakers. Raziya Isayeva informed the audience about the project and the conferences organized so far within this project.

Then Ms. Emma Robinson, Deputy Head of Mission, British Embassy in Azerbaijan (TBD), spoke about climate change and its consequences. She called on everyone to protect nature and the planet as an individual.

Nigar Baimova, Deputy Director of the British Council in Azerbaijan, Rovshan Abbasov, Head of the Geography and Environment Department at Khazar University, Jeyhun Hajiyev, Representative of the Ernst and Young Climate Change and Sustainability Service, and Gulsara Gasimova, Young Ambassador for Sustainable Development Goals 15 gave speech as a guest speaker of the conference. They spoke about climate change and its consequences, and various solutions. Then a question and answer session took place.

The second part of the conference was dedicated to the competition organized within the project. Students from Khazar University, Dunya School, and Educational Complex No. 132-134 presented their posters for one minute. In the end, the first 3 places were awarded by the jury.

The project arCc, which which covers 13 countries and 3 continents, will reflect on the impact of lifestyle on climate change, realise the importance of individual accountability, recognise the importance of individual accountability, identify ways to demonstrate awareness of own responsibility to take action through local level awareness webinars, events, and competitions.

**"İqlim dəyişikliyinə dair məsuliyyət" layihəsinin (aRCc) yekun konfransı**

2022-ci il martın 15-də “Dünya” məktəbində Xəzər Universitetinin tərəfdaş olduğu Britaniya Konsulluğunun Yaradıcı Komissiyalar Proqramı tərəfindən dəstəklənən Assuming Responsibility for Climate Change (arCc) layihəsi çərşivəsində "İqlim Dəyişikliyinə Dair Məsuliyyət" adlı yekun konfransı keçirildi.

Konfrans Xəzər Universiteti İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın giriş sözü ilə başladı.O, iştirakçıları və qonaq natiqləri salamladı. Raziyə İsayeva layihə və bu layihə çərçivəsində indiyədək təşkil olunmuş konfranslar haqqında məlumat verdi.

Sonra Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin missiya rəhbərinin müavini Emma Robinson iqlim dəyişikliyi, onun yaratdığı fəsadlar haqqında danışdı. O, hə kəsi fərd olaraq təbiəti, planeti qorumağa çağırdı.

Konfransda Britaniya Konsulluğunun Azərbaycandakı direktor müavini Nigar Bəyimova, Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Ernst and Young İqlim Dəyişiklikləri və Davamlılıq Xidmətinin nümayəndəsi Ceyhun Hacıyev, Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfir Gülsarə Qasımova qonaq natiq qismində çıxış etdilər. Onlar iqlim dəyişikliyi və onun nəticələri haqqında təqdimat edərək, müxtəlif həll yollarından danışdılar. Daha sonra sual-cavab sessiyası baş tutdu.

Konfransın 2-ci hissəsi layihə çərçivəsində təşkil olunmuş yarışmaya həsr olundu. Xəzər Universiteti, “Dünya” məktəbi və 132-134 nömrəli təhsil kompleksinin tələbələri 1 dəqiqəlik çıxış edərək, posterlərini təqdim etdilər. Sonda ilk 3 yeri tutanlar münsiflər heyəti tərəfindən mükafatlandırıldı.

Qeyd edək ki, 13 ölkə və 3 qitəni əhatə edən layihə həyat tərzinin iqlim dəyişikliyi üzərindəki təsirini əks etdirmək, fərdi məsuliyyəti və onun vacibliyini anlamaq, yerli səviyyədə məlumatlandırma vasitələrilə (vebinarlar, tədbirlər, müsabiqələr) hərəkətə keçmək üçün fərdin məsuliyyətini dərk etməyinin yollarını müəyyənləşdirməyə kömək etmək məqsədilə həyata keçirilir.